BEYNƏLXALQ VALYUTA FONDU

AZƏRBAYCAN

**Standartlara və Məcəllələrə Riayət üzrə Hesabat (SMRH)— Məlumat modulu**
**Cild III**

**Məlumat Keyfiyyətinin Qiymətləndirilməsi Çərçivəsindən istifadə etməklə ətraflı qiymətləndirmə**

Statistika Şöbəsi tərəfindən hazırlanmışdır

Robert W. Edwards və Mohsin Khan tərəfindən təsdiqlənmişdir
İyun XX.2008

Bu Standartlara və Məcəllələrə Riayət üzrə Hesabat (SMRH)— Məlumat moduluna dair Azərbaycanın Hesabatında müzakirə edilən məlumat keyfiyyəti ölçüləri uyğun şəkildə elementlərin və göstəricilərin İstehlak Qiymətləri İndeksi üçün ətraflı qiymətləndirmədən ibarətdir. Sənəddə, həmçinin əlavələr kimi Məlumatların Keyfiyyətinin Qiymətləndirilməsi Çərçivəsinin ümumi çərçivəsi və istifadəçilərin müayinəsinin nəticələri əks olunmuşdur.

**Mündəricat** **Səhifə**

Akronimlər

I. Qiymət statistikası (İstehlak Qiymətləri İndeksi) 3

## AKRONIMLƏR

| | |
|---|---|
| *1993 SNA* | *Milli Hesablar Sistemi 1993* |
| *COİCOP* | *MƏQSƏDLƏR ÜZRƏ FƏRDİ İSTEHLAKIN TƏSNİFATI* |
| CPI | İstehlak Qiymətləri İndeksi Consumer price index |
| CPİ MANUAL | *İSTEHLAK QİYMƏTLƏRİ ÜZRƏ TƏLİMAT 2004* |
| DQAF | Məlumat Keyfiyyətinin Qiymətləndirilməsi Çərçivəsi |
| GDP | Ümumi Daxili Məhsul |
| HBS | Ev təsərrüfatlarının büdcə müayinəsi |
| ILO | Beynəlxalq Əmək Təşkilatı |
| NBA | *Azərbaycan Milli Bankı* |
| PPI | İstehsalçı Qiymətləri İndeksi |
| ROSC | Standartlara və Məcəllələrə Riayət üzrə Hesabat |
| SDDS | Məlumatların Yayılmasının Xüsusi Standartı |
| SNA | Milli Hesablar Sistemi |
| SSC | *Dövlət Statistika Komitəsi* |

# MƏLUMATLARIN KEYFİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ÇƏRÇİVƏSİNDƏN İSTİFADƏ ETMƏKLƏ ƏTRAFLI QİYMƏTLƏNDİRMƏ

İstehlakçı qiymətlərə dair statistika təcrübəsi üzrə aşağıdakı ətraflı məlumatlar ictimaiyyətə açıq olan sənədlərdən və Azərbaycan rəsmiləri tərəfindən verilən informasiyalardan əldə edilmişdir. Məlumatın Keyfiyyətinin Qiymətləndirilməsi Çərçivəsi (bax Əlavə II) üzrə təşkil olunan bu məlumatlar Standartlar və Məcəllələrə Riayət üzrə Azərbaycan Hesabatında göstərilən riayətin dörd hissəli əhatə dairəsinə əsaslanan məlumat keyfiyyətinin elementlərinin yekun qiymətləndirilməsini hazırlamaq üçün istifadə edilmişdir.

## I. QİYMƏT STATİSTİKASI (İSTEHLAK QİYMƏTLƏRİ İNDEKSİ )

### 0. Keyfiyyət üçün ilkin şərtlər

### *0.1 Hüquqi və institusional mühit*

*0.1.1 Statistik məlumatların toplanılması, işlənilməsi və yayılmasına dair məsuliyyət dəqiq müəyyənləşdirilibr.*

İstehlak Qiymətləri İndeksi Dövlət Statistika Komitəsi tərəfindən tərtib edilir və yayılır, bu da 20 Oktyabr 2006-cı il tarixli düzəlişlər də nəzərə alınmaqla, "Rəsmi Statistika haqqında" Qanun ilə tənzimlənir. "Rəsmi Statistika haqqında" Qanunun 3-cü maddəsi Dövlət Statistika Komitəsi kimi dövlət statistika orqanlarının və yerli statistika orqanlarının institusional əhatəsini müəyyən edir və sonuncular "yalnız Azərbaycanın Dövlət Statistika Komitəsinə" tabedir. Maddə 6 dövlət statistika orqanlarının aşağıdakı vəzifələrini müəyyən edir:

1. Statistika Şurası ilə məsləhətləşmələrdən sonra bu Qanunun 3-cü maddəsinin üçüncü abzasına uyğun olaraq, proqramın layihəsini və proqramda nəzərdə tutulmuş statistik tədbirləri hazırlayır, təşkil edir və həyata keçirirlər;
2. Proqramla digər orqanlara həvalə edilmiş rəsmi statistika materiallarının istehsalının və müşahidələrin qanunauyğun aparılmasına metodiki köməkliyi və beynəlxalq təcrübədə qəbul edilmiş standartlarla daha çox müqayisə oluna bilən metodologiyanın, təsnifatların və standartların işlənilməsini həyata keçirirlər;
3. Proqramın yerinə yetirilməsinə dair illik hesabatı müvafiq icra hakimiyyəti orqanına təqdim edir və bu hesabatı nəşr etdirirlər;
4. Azərbaycan Respublikasının və onun regionlarının icra hakimiyyəti orqanlarını proqrama uyğun olaraq sosial-iqtisadi vəziyyətə dair zəruri statistik məlumatlarla təmin edirlər;
5. Statistik vahidlərdən yığılmış zəruri məlumatlar əsasında ölkə və regionlar üzrə ümumiləşdirilmiş və qruplaşdırılmış nəticələri tərtib edirlər, statistik məcmuələr, bülletenlər, icmallar, mətbu-buraxılışlar və digər statistik materiallar nəşr edir, onları istifadəçilər arasında yayır və ictimaiyyətdə maraq doğuran icmal statistik məlumatları mətbuatda dərc edirlər;

...

7. Statistik məlumatların doğruluğunu və obyektivliyini, baş verən sosial-iqtisadi hadisələrə və proseslərə onların tam uyğunluğunu, keyfiyyətliliyini və vaxtında toplanmasını, habelə statistik sirr sayılan məlumatların qorunmasını təmin edirlər;
8. Rəsmi statistikanın əhəmiyyətinin geniş ictimaiyyətə izah olunmasını təşkil edirlər;

...

10. Statistik vahidlərin Dövlət registrini tərtib edir və aparırlar;
11. Beynəlxalq təcrübədə tətbiq olunan təsnifatlar əsasında və Azərbaycan Respublikasının qanunvericilik aktlarının tələbləri nəzərə alınmaqla, statistik işlərin təşkili üçün zəruri texniki-iqtisadi və sosial məlumatların milli təsnifatlarını hazırlayırlar;

> 12. Hüquqi şəxslərin, dövlət orqanlarının və vətəndaşların müraciətləri əsasında məlumatlar bankında onların özlərinə aid olan məlumatları təqdim edirlər;
> 13. Dövlət statistika hesabatlarını təqdim edən hüquqi və fiziki şəxsləri hesabat formaları və onların tərtibinə dair təlimatlarla pulsuz təmin edir, onları statistik hesabatların təqdim olunma vaxtı, dövriliyi və digər zəruri tələblər haqqında məlumatlandırırlar.

Dövlət Statistika Komitəsi haqqında Əsasnamənin (24 noyabr, 2005) 1-ci paraqrafında qeyd edilir ki,

> Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (bundan sonra Dövlətstatkom) statistika sahəsində dövlət siyasətini həyata keçirən və ölkədə sosial, iqtisadi və demoqrafik vəziyyət ilə bağlı rəsmi statistik məlumatları vahid metodologiya əsasında formalaşdıran mərkəzi icra hakimiyyəti orqanıdır.

"Rəsmi Statistika haqqında" Qanun və Dövlət Statistika Komitəsinin Əsasanaməsi Dövlət Statistika Komitəsini statistik məlumatların yığılması, işlənilməsi və yayılması daxil olmaqla, dövlət əməliyyatlarının statistika sahəsində geniş səlahiyyətlərə malik mərkəzi statistika təşkilatı olaraq müəyyən edir.

*0.1.2 Məlumatların mübadiləsi və məlumat istehsal edən təşkilatlar arasında koordinasiya tələblərə cavab verir.*

"Rəsmi Statistika haqqında" Qanunun 7-ci maddəsi Dövlət Statistika Komitəsinin inzibati mənbələrdən və hüquqi şəxslər tərəfindən hazırlanmış məlumatları əldə etmək hüququnu təmin edir. Hüquqi şəxslər kimi müəyyən edilən vahidlər sinifi, mərkəzi hökumət, nazirliklər və Azərbaycanın Milli Bankı kimi dövlət statistika orqanlarından başqa bütün vahidləri özündə birləşdirməklə, daha geniş əhatə dairəsinə malikdir. Statistikanın vacib sahələri bu digər təşkilatlar tərəfindən əhatə olunur. Misal üçün, pullar üzrə məlumatları və tədiyə balansı statistikasını Azərbaycanın Milli Bankı tərtib edir; büdcə statistikasını Maliyyə Nazirliyi tərtib edir və Dövlət Statistika Komitəsi beynəlxalq əmtəə ticarəti məlumatlarını tərtib edir. Qanun Dövlət Statistika Komitəsinə ölkənin statistika proqramının hazırlanmasında ilkin və koordinasiya rolunu verir. Dövlət Statistika Komitəsi digər təşkilatlarla sıx əlaqələr saxlayır. İnzibati mənbələrdən məlumatlar və digər məlumatlar vaxtlı-vaxtında əldə edilir və 7-ci maddədə əhatə edilən hüquqi şəxslərdən tələb edilən ətraflı səviyyədə tələb edilir.
Xüsusi ilə istehlak qiymətləri indeksinə gəldikdə, Vergilər Nazirliyi kimi digər təşkilatlardan qeydlər Dövlət Statistika Komitəsinin müəssisələr reyestrinin aktuallaşdırılması üçün istifadə edilir, hansı ki, istehlak qiymətləri indeksinin pərakəndə satış seçməsi üçün seçmə çərçivəsinin qurulması və aktuallaşdırılması üçün vacib mənbədir.

Təşkilatarası məlumat mübadiləsi sistemi güclüdür və funksionaldır.

*0.1.3 Hesabat verən şəxslərin fərdi məlumatları məxfi saxlanılır və yalnız statistik məqsədlər üçün istifadə olunur.*

"Rəsmi Statistika haqqında" Qanun (20 oktyabr, 2006-cı il düzəlişləri ilə) dövlət statistika orqanlarına (Dövlət Statistika Komitəsi və regional statistika orqanları daxil olmaqla) hesabat olaraq verilən fərdi informasiyanın məxfiliyi ilə əlaqədar aşağıdakıları özündə əks etdirir:

"Rəsmi statistikanın məqsədi statistik məlumatların rolunun artırılmasına, hüquqi və fiziki şəxslərin hüquqlarına hörmət edilməklə və ilkin məlumatlar məxfi saxlanılmaqla onların mənafeyinə xidmət etməkdir.

Rəsmi statistikanın əsas məqsədi ilkin məlumatların məxfiliyini təmin etməklə ölkədə sosial-iqtisadi vəziyyəti, elmi-texniki inkişafı, ölkə, region və sahə səviyyəsində qarşılıqlı təsərrüfat əlaqələrini, struktur dəyişikliklərini və istehsalın səmərəliliyini səciyyələndirən statistik məlumatlarla idarəetmə orqanlarının, iqtisadi subyektlərin, elmi işçilərin ehtiyaclarının ödənilməsindən ibarətdir."[Maddə 2. Azərbaycan Respublikasında Rəsmi Statistikanın məqsədi]

"Dövlət statistika orqanları öz səlahiyyətləri çərçivəsində aşağıdakılara görə məsuliyyət daşıyır:
...
7. Statistik məlumatların doğruluğunu və obyektivliyini, baş verən sosial-iqtisadi hadisələrə və proseslərə onların tam uyğunluğunu, keyfiyyətliliyini və vaxtında toplanmasını, habelə sirr sayılan məlumatların qorunmasını təmin edirlər;" [Maddə 6. Dövlət statistika orqanlarının vəzifələri]

"Dövlət statistika orqanlarının vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:
...
3. Rəsmi statistikanın aparılması üçün məlumatlar təqdim etməyən, yaxud məlumatları gecikdirməklə və ya təhriflə təqdim edən, statistik sirri yayan şəxslər barəsində qanunvericilikdə müəyyən edilmiş qaydada inzibati icraat başlamaq və inzibati tənbeh tədbirləri tətbiq etmək;" [Maddə 7. Dövlət statistika orqanlarının hüquqları və səlahiyyətləri]

"Rəsmi statistikanın keyfiyyətliliyini və ictimaiyyətin statistikaya inamını təmin etmək üçün bu sahədə proqramların həyata keçirilməsi üzrə işlərin təşkili və aparılması statistika məlumatlarının düzgünlük, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır" [Maddə 9. Rəsmi statistikanın prinsipləri]

"Proqramın həyata keçirilməsi, xüsusən də məlumat mənbələrinin, statistik metodların seçilməsi və məlumatların yayılması prosesi, onun məzmunu, forması, vaxtı və statistik məlumatların məxfiliyinin təmin olunması zamanı dövlət statistika orqanları müstəqildir və kənar təşkilatlardan bu işlərə dair göstəriş və təlimatlar qəbul etmirlər." [Maddə 10. Rəsmi statistikanın müstəqilliyi]

Rəsmi statistika materiallarının istehsalı üçün məlumatların təqdim olunmasına cəlb edilmiş statistik vahidlərin müayinə və siyahıyaalmanın məqsədi, əhatə dairəsi, statistik məlumatların məxfiliyinin təmin edilməsi üçün təminat, həmçinin bu barədə öz səlahiyyət və vəzifələri haqqında məlumat almaq hüququ vardır. [Maddə 11. Statistik müşahidələr]

"Rəsmi Statistika haqqında" Qanunun 6-cı Bölməsi (İlkin statistik məlumatlar və onların məxfiliyi) aşağıdakı başlıqlar altında ilkin (fərdi) qeydlərin istifadəsini müəyyən edir və tənzimləyir:

Maddə 15. İlkin statistik məlumatlar və onlardan istifadə edilməsi
Maddə 16. Statistik sirr və hamı üçün açıq olan məlumatlar
Maddə 17. Məxfi statistik məlumatların istifadə edilməsi
Maddə 18.Elmi tədqiqatlar
Maddə 19. Məxfi statistik məlumatların əldə edilməsi
Maddə 20.Məlumatların qorunması üzrə tədbirlər

"Rəsmi Statistika haqqında" Qanunun 22-ci Maddəsi (Məxfi statistik məlumatların yayılması dəqiq açıqlama standartını müəyyən edir:

> Məxfi məlumatları əks etdirən, yaxud onu açıqlayan rəsmi statistika materiallarının istifadəçilər arasında yayılmasına icazə verilmir.
> Açıqlanmasına icazə verilən yekun (ümumiləşdirilmiş) məlumatlar ən azı üç statistik vahidin məlumatını əhatə etməlidir və belə yekunlarda statistik vahidlərdən hər hansı birinin payı 85%-dən çox olmamalıdır.

Maddə 26 (Statistika haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət) bildirir ki,

> Statistika haqqında qanunvericiliyin pozulması qanunvericiliyə uyğun intizam, inzibati və cinayət məsuliyyətinə səbəb olur.

Nəticədə, "Rəsmi Statistika haqqında" Qanunun 28-ci Maddəsi (Dövlət statistika orqanları işçilərinin məsuliyyəti) statistika orqanlarında işləyərkən və ya sonra fərdi məlumatların məxfiliyini pozan dövlət statistika orqanlarının işçilərinə qarşı hüquqi tədbirləri müəyyən edir.

Dövlət Statistika Komitəsinin Əsasnaməsinin (24 Noyabr, 2005-ci il) 6.5-ci paraqrafı istifadəçilərə məlumatları ölkə, region və şəhər səviyyələrində təmin edilməsi şərti ilə məxfiliyin saxlanılmasını Dövlət Statistika Komitəsindən tələb edir və paraqraf 7.16 qanuna zidd olan statistik məlumatların əldə edilməsi, yayılması və istifadə edilməsi hallarının qarşısını almaq üçün Dövlət Statistika Komitəsindən zəruri tədbirlərin görülməsini tələb edir.

Müayinə formaları açıq şəkildə hesabat olaraq verilən məlumatların Qanun əsasında məxfiliyin subyekti olduğu bildirilir. Məxfiliyin pozulduğu hal meydana çıxarsa işçilərin işdən azad edilməsi nəzərdə tutulur və onlar Dövlət Statistika Komitəsinə işə düzələrkən məxfi məlumatların açıqlanmamasını nəzərdə tutan xüsusi formanı imzalayırlar. Fərdi məlumatları əldə etmək imkanı müvafiq işçilər üçün həm faktiki formalar, həm də kompüter qeydləri nəzərə alınmaqla məhdudlaşdırılıb.

*0.1.4 Statistik hesabatların verilməsi hüquqi mandat və/və ya cavablandırmanı həvəsləndirən tədbirlər vasitəsilə təmin edilir..*

"Rəsmi Statistika haqqında" Qanunun 6-cı Maddəsi Dövlət Statistika Komitəsinə kommersiya nöqteyi nəzərdən məxfi olan məlumatlar da daxil olmaqla, qeydiyyatdan keçən iqtisadi vahidlərdən və ev təsərrüfatlarından məlumatların əldə edilməsi səlahiyyətini verir. Qanunun pozulması və ya riayət olunmaması hallarında 15-ci və 16-cı maddələr intizam, inzibati və ya cinayət sanksiyaları daxil olmaqla, tənbeh haqqında dolğun açıqlama verir. Könüllü cavab verən iqtisadi vahidləri həvəsləndirmək üçün Dövlət Statistika Komitəsi kiçik müəssisələr üzərindəki hesabat yükünü azaltmış və hazırda aylıq əvəzinə onlardan rüblük məlumat toplayır və bütün respondentlər üçün hesabat formalarının ümumi sayı üçdə ikisi qədər azaldılıb. Sorğu anketlərinin doldurulması üçün respondentlərə tam yardım göstərilir.

## *0.2 Resurslar*

### *0.2.1 İşçi heyəti, vasitələr, hesablama resursları və maliyyələşdirmə statistik proqramlara müvafiqdir.*

Qiymət statistikası şöbəsinin istehlak qiymətləri indeksi bölməsinin bir baş iqtisadçısı və bir aparıcı iqtisadçısı vardır ki, gündəlik olan əməliyyatların öhdəsindən gəlir və Qiymət Şöbəsinə hesabat verir. İstehlak qiymətləri indeksi müayinəsinə Bakı regional ofisində 17 qiymət qeydiyyatçısı 11 rayonu əhatə etməklə, Bakı üzrə istehlak qiymətləri indeksi üzrə məlumatları təmin edir. Qalan regionları (Naxçıvan regionu 7 rayonu əhatə edir) əhatə edən 59 rayonda 85 qiymət qeydiyyatçısı vardır. İstehlak qiymətləri indeksi proqramının mərkəzi və regional ofis əməliyyatları hesablama mərkəzi tərəfindən dəstəklənir. İşçi heyəti, Qiymət Statistikası Şöbəsi və Statistik İnformasiya Şöbəsi tərəfindən təşkil edilən daxili seminarlar əsasında müntəzəm şəkildə qiymət toplama prosedurları ilə təlimatlandırılır. Qiymət Statistikası Şöbəsi işçi heyətinin beynəlxalq təlim imkanları, həmçinin Beynəlxalq Valyuta Fondu tərəfindən keçirilən təlim kurslarında iştirakını dəstəkləyir.

Dövlət Statistika Komitəsinin istehlak qiymətləri indeksi sektorunun bütün peşəkar işçi heyətinə xidmət edən fərdi kompüterlər şəbəkəsi və müasir, etibarlı qiymət məlumat bazası vardır ki, regional səviyyədə qiymətlərin toplanılması və yoxlanılmasına xidmət edir, habelə qiymət müayinəsini idarə etmək və statistik məlumatların tərtib edilməsi üçün fərdi qeyd məlumatlarının mərkəzi aparatda məlumatların axtarılmasına və təhlilinə xidmət göstərir. İndeksin hesablanması sistemi müasirdir və onun alqoritmləri cari beynəlxalq tövsiyələri özündə birləşdirir. Ev təsərrüfatları büdcə müayinəsinə xidmət edən kompüter sistemi, həmçinin müasirdir və fərdi qeyd informasiyaların saxlanılmasında təhlükəsizdir və müayinənin idarə edilməsi, təhlil edilməsi və istehlakçı qiymət indeksi çəkilərinin tərtib edilməsi də daxil olmaqla, ev təsərrüfatları üzrə statistik məlumatların tərtib edilməsində məlumatların axtarılması etibarlıdır.

Əmək haqqı normaları illik olaraq yenidən baxılır və cəlb edilən işçi heyətinin keyfiyyətini saxlamaq və istehlak qiymətləri indeksinin iş proqramını icra etmək və özünün istehlak qiymətləri indeksi məlumatlarının işlənib hazırlanması və Dövlət Statistika Komitəsinin peşəkar potensialını dəstəkləyən səviyyələrdən işçi heyətininin axınını məhdudlaşdırmaq üçün dövri olaraq tənzimlənir. Qiymət qeydiyyatçılarına müayinə üzrə təyin olunmuş pərakəndə satış məntəqələrinə getmək üçün nəqliyyat xərci əlavə olaraq verilir.

### *0.2.2 Resursların səmərəli istifadəsini təmin etmək üçün tədbirlər yerinə yetirilir.*

Dövlət Statistika Komitəsinin Şurası (kollegiya) Dövlət Statistika Komitəsinin Sədri (Şuranın Sədri), Sədr müavinləri, həmçinin Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri, Dövlət Statistika Komitəsinin mərkəzi aparatının aparıcı heyəti və tabeliyində olan təşkilatlardan ibarətdir. Şura Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılmış Statistika Proqramı işinin təşkili və icrasına nəzarət etmək məsuliyyəti daşıyır. Şura müxtəlif idarələrin fəaliyyətlərini koordinasiya edir və prioritet olan işlər üzrə tövsiyə verir, müvafiq maliyyələşdirmə üzrə tələbləri müəyyən edir, məlumatların toplanılması ilə əlaqədar prioritetləri müəyyən edir və Dövlət Statistika Komitəsində uyğun

metodologiyaların, təsnifatların və ümumiyyətlə qəbul edilmiş yaxşı statistika və idarəetmə praktikalarının təqib edilməsini təmin edir.

“Rəsmi Statistika haqqında” Qanunun 3-cü maddəsi göstərir ki:

> Proqramda mövcud ehtiyatlar, respondentlərə düşən yük və onun dəyəri nəzərə alınmaqla, Azərbaycan Respublikasının iqtisadi, demoqrafik, sosial və ekoloji sahələrinin vəziyyətinin öyrənilməsi ilə bağlı təşkil ediləcək statistik müşahidələr nəticəsində əldə olunacaq məlumatları əhatə edir.

Beləliklə, Statistik Proqramın tərtibatı resurs səmərəliliyinə diqqət yetirməlidir. Rəhbərlər işçi heyətin yerinə yetirdiyi işlərə müntəzəm nəzarət edir.

Müəssisələr reyestrinin cəlb olunduğu rəsmi seçmə üsullarını gözləmək qərarına nisbətən qiymət qeydiyyatçıları tərəfindən toplanılan məlumat əsasında pərakəndə ticarət müəssisələri seçməsinin davamlı olaraq aktuallaşdırılması səmərəliliyin artırılması istiqamətində statistik proseslərin mütəmadi olaraq hər bir imkandan istifadəni nəzərdən keçirməsinin aydın sübutudur.

## *0.3 Aktuallıq*

*0.3.1 İstifadəçilərin tələblərinin ödənilməsi üçün cari statistik məlumatların aktuallığu və praktiki faydalılığı üzərində nəzarət həyata keçirilir.*

18 Fevral 1994-cü ilin “Rəsmi Statistika haqqında” Qanununun (20 oktyabr 2006-cı il düzəlişləri ilə) 8-ci Maddəsi Dövlət Statistika Komitəsinin iş proqramı üzrə məsləhət verən hökumət, müəssisə, həmkarlar təşkilatı, akademik və digər sosial sektorlardan ibarət məlumat istifadəçilərinin Statistika Şurasının əsasını qoyur:

> Statistika Şurası (bundan sonra – “Şura”) proqramın hazırlanması, həyata keçirilməsi və statistikanın təşkili, inkişafı və fəaliyyət göstərməsi üzrə məsləhətlərin verilməsi məqsədi ilə yaradılır. Şura müvafiq icra hakimiyyəti orqanı yanında, ictimai əsaslarla fəaliyyət göstərir və əsasən aşağıdakı funksiyaları yerinə yetirir:
> - proqramın hazırlanmasına dair təklif və tövsiyələrin verilməsini;
> - proqramın həyata keçirilməsi məsələləri ilə bağlı məsləhətlərin verilməsini;
> - Azərbaycan Respublikasında rəsmi statistikanın ardıcıl inkişafı üzrə tövsiyələrin hazırlanmasını;
> - statistik məlumat istifadəçilərinin statistikaya dair irad, rəy və təkliflərinə baxaraq müvafiq icra hakimiyyəti orqanına tövsiyələr verilməsini.
>
> Şuranın işi aşkarlıq şəraitində həyata keçirilir. Şuranın tövsiyələri geniş ictimaiyyətə çatdırıla bilər.
>
> Şuranın tərkibinə Azərbaycanın Dövlət Statistika Komitəsi, Maliyyə, İqtisadi İnkişaf, Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsi, Milli Bank, Həmkarlar Təşkilatları, özəl müəssisələr, elmi cəmiyyətlər və statistik məlumatların istifadəçilərinin nümayəndələri daxil edilirlər.
>
> Şuranın üzvləri Nazirlər Kabinetinin qərari ilə 5 il müddətinə təsdiq edilir.

Şuranın yığıncaqları rübdə bir dəfə keçirilir və Dövlət Statistika Komitəsinin statistik məhsullarının və onun iş proqramının istifadəçi tərəfindən təsirə ehtiyacı olduğunu bildirməsi üçün əsas kanaldır.

Statistika Şurası Dövlət Statistika Komitəsinin öz məlumat istifadəçilərinin ehtiyaclarına dərhal cavab vermək üçün vacib institusional mexanizmdir. Qiymət Statistikası Şöbəsi müvafiq proqram vasitəsi ilə qiymət məsələsi üzrə Dövlət Statistika Komitəsi kollegiyasının müzakirə obyekti olduğu zaman dövri Şura görüşləri üçün Dövlət Statistika Komitəsinin rəhbərliyinin hazırlığı üçün məsuliyyət daşıyacaqdır. Bu hələ ki, baş verməyib, və Şuranın istehlakçı qiymət indeksi üzrə istifadəçi cavab reaksiyasının əhəmiyyətli mənbəyi olmayıb.

Qanunvericilik Şuranın öz rəylərini ictimaiyyətə açıqlaya bilmək hüququnu təmin edir. İstifadəçilərin ehtiyaclarını təmin edə biləcək, Dövlət Statistika Komitəsinin artıq istehsal etdiyi məhsullar haqqında Şura vasitəsi ilə istifadəçiləri maarifləndirmənin hələ istifadə edilməmiş imkanları ola bilər ki, bunun vasitəsi ilə Dövlət Statistika Komitəsinin konkret istifadəçi tələblərinə cavab verməmək üçün qərarının səbəbi açıqlana bilər. Birinci mövzunu əhatə edən gündəlik proqramın maddəsinin nümunəsi Dövlət Statistika Komitəsinin məlumat seriyalarının dəqiqliyi və ya düzgünlüyü haqqında hər hansı ictimai debat ola bilər. Birinci mövzunu əhatə edən gündəlik proqramın maddəsinin nümunəsi seçilmiş ətraflı məlumat maddələrinin çap edilməməsi üzrə Dövlət Statistika Komitəsinin qərarını ünvanlaya bilər. Sonuncu halda, bu izahlar fərdi hesabat verən şəxslərin sirrinin qorunmasını və ya cap edilən məlumatların ətraflı olaraq açıqlanmaması halları üzrə ictimaiyyət tərəfindən artan sorğuların öhdəsindən gəlmək üçün işçi heyətinin bacarıqlarının məhdudluğunu əhatə edə bilər.

*Tövsiyə:* Dövlət Statistika Komitəsi nəşr edilən istehlakı qiymətləri indeksi üzrə əminliyini gücləndirmək üçün istifadəçilərin narahatlıqlarını müəyyən etmək və ünvanlandırılmasına yardım etmək üçün yenicə yaradılmış Statistik Şuradan daha aktiv istifadə edə bilər. Xətanın həddini təmin etmək üçün açıqlanma qaydaları təmin edilir, Dövlət Statistika Komitəsi istehlak qiymətləri indeksi çəkiləri üçün istifadə edilən ev təsərrüfatı büdcə müayinəsinin xərc informasiyasının yayılan ətraflı məlumatlarını məhdudlaşdırır. Ən azı bir istifadəçi bunun səbəbini başa düşməmişdir. Şura Dövlət Statistika Komitəsinin açıqlama siyasətinin təsirləri haqqında istifadəçiləri məlumatlandırmaq üçün yaxşı forum ola bilər. Şura meydana çıxan məsələlər haqqında xəbərdar ola bilər, məsələn, istehlakçı qiymət indeksinin məhsulu və sahə çəkisinin əldə edilməsi, habelə bu kimi məsələlərin hər hansı daxili və ya xarici qiymətləndirmələri haqqında. Dövlət Statistika Komitəsi tələb edildiyinə uyğun olaraq yeni qiymət göstəriciləri üçün ehtiyac kimi qarşıda duran məsələlərin müzakirəsini Şuraya təklif edə bilər.

## ***0.4 Keyfiyyətin idarəedilməsinin digər aspektləri***

### *0.4.1 Keyfiyyət məsələləri üzərində diqqəti cəmləşdirmək üçün prosedurlar mövcuddur.*

Dövlət Statistika Komitəsinin rəhbərliyi statistik proseslərininn tərtibatı vasitəsi və bu prosesləri layiqincə icra etmək üçün işçi heyətinin motivasiyası ilə statistik məlumat məhsullarının keyfiyyətinin maksimuma çatdırılmasına xüsusi diqqət yetirir. Bu artıq nümayiş etdirilir, məsələn, yekun indeks tabulyasiyasından əvvəl qeyri-adi görünən hər hansı bir məsələyə xüsusi diqqət yetirməklə, qiymətdəki dəyişikliklərə diqqətli şəkildə baxılması, və məsələn İstehlak Qiymətləri İndeksi üzrə Təlimatda (2004) təsvir edildiyi kimi, qiymət indeksindəki ən yaxşı beynəlxalq praktikanın həyata keçirilməsinə və riayət edilməsinə

diqqət yetirir. Məhsul spesifikasiyaları qeyd edilir və qiymət məlumat bazasında saxlanılır. Qiymət toplayanlar tərəfindən pərakəndə satış məntəqələrindən qiymətlərin qeyd olunması üçün istifadə edilən müayinə formaları hər bir məntəqə üzrə təyin olunmuş müayinə üzrə məhsul spesifikasiyalarının izahı ilə yenidən çap edilir.

*0.4.2 Statistik proqramın keyfiyyətini yoxlamaq üçün prosedurlar mövcuddur.*

Statistik Şura (bax 0.3.1) istifadəçilərin keyfiyyət qiymətləndirmə informasiyasının əsas mənbəyidir və Dövlət Statistika Komitəsinin Statistikanın İnkişafı üzrə beş illik Proqramının və illik Statistika İşləri Proqramının hazırlanmasında hüquqi cəhətdən təsdiq edilmiş məsləhətçi roluna malikdir. Dövlət Statistika Komitəsi müntəzəm olaraq öz daxili proseslərinə yenidən baxır və təkmilləşdirmələri planlaşdırır. Həm pərakəndə satış məntəqəsi üzrə müayinə, həm də ev təsərrüfatı büdcə müayinələrindən əldə edilən informasiyalar dəqiqlik üçün yaxından yoxlanılır və əsasən bütün tərtibat mərhələləri kompüterdə avtomatlaşdırılmış şəkildə aparılır ki, müvafiq indeks kalkulyasiyası alqoritmlərinin tətbiq edilməsini və çox az tərtibat xəta normalarını təmin edir. Texniki məsələlər müzakirə edilir və Elmi-Metodoloji Şura (Dövlət Statistika Komitəsinin Nizamnaməsində qeyd olunduğu kimi, 24 noyabr, 2005-ci il, paraqraf 18) tərəfindən təsdiqlənir. Şura Dövlət Statistika Komitəsinin aparıcı mütəxəssislərindən ibarətdir və cari işlərə nəzarət etmək və meydana çıxan statistik və müayinə məsələlərini ünvanlamaq üçün ayda iki dəfə görüşür.

*0.4.3 Statistik proqramın planlaşdırılması zamanı keyfiyyət məsələlərinin həlli üçün prosedurlar mövcuddur.*

Statistikanın İnkişafı üzrə beş illik Proqram Statistika Şurasının məsləhəti ilə saxlanılır və ölkə Prezidenti tərəfindən təsdiqlənir. Statistikanın inkişafının cari proqramı 2008-2012-ci illəri əhatə edir. Statistikanın inkişaf proqramları qüvvədə olduğu müddət ərzində tənzimlənir. İnkişaf proqramını həyata keçirmək üçün Dövlət Statistika Komitəsinin Sədri Statistik İş üzrə illik Proqramın icrası üçün Prezidentə tabedir və hesabat verir. Dövlət Statistika Komitəsi statistik iş üzrə illik proqramla əlaqədar olaraq ildə iki dəfə işlərin gedişatı və irəliləyişlər haqqında Statistika Şurasın hesabat verir və ildə bir dəfə Şuraya beş illik inkişaf proqramı haqqında hesabat verir. Dövlət Statistika Komitəsinin idarəetmə strukturuna Aparatın Rəhbəri daxildir, hansı ki, təşkilatın büdcəsi çərçivəsində Statistik İş üzrə Proqramın icrasını əlaqələndirir, Sədrə birbaşa hesabat verən Şöbə rəisləri (Qiymət Şöbəsi də daxil olmaqla), inzibati İdarə rəisləri (Mühasibat İdarəsi daxi olmaqla), habelə iki Sədr müavinləri ilə əlaqə saxlayır. Texniki məsələlər Dövlət Statistika Komitəsinin aparıcı işçi heyətindən ibarət olan Elmi-Metodoloji Şurada (Dövlət Statistika Komitəsinin Nizamnaməsi, 24 noyabr, 2005-ci il, paraqraf 18) müzakirə edilir və təsdiqlənir. Şuranın tərkibinin ayda iki dəfə baş tutan görüşlərində yeni metodologiyaların işlənib hazırlanması və ya yeni məlumat mənbələri və statistik məhsulların qurulması üzrə təkliflər verilə bilər.

# 1. Qərəzsizliyin təminatı

## *1.1 Peşəkarlıq*

### *1.1.1 Statistik məlumatlar qərəzsiz əsasda hazırlanır.*

"Rəsmi Statistika haqqında" Qanunun 4-cü Bölməsi (20 oktyabr, 2006-cı il düzəlişləri ilə) Dövlət Statistika Komitəsinin peşəkar müstəqilliyinə zəmanət verir. 9-cu Maddədə qeyd edilir ki:

> Rəsmi statistikanın keyfiyyətliliyini və ictimaiyyətin statistikaya inamını təmin etmək üçün bu sahədə proqramların həyata keçirilməsi üzrə işlərin təşkili və aparılması statistika məlumatlarının düzgünlük, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır.

10-cu Maddədə bildirilir ki:

> Dövlət və qeyri-hökumət təşkilatlarının dövlət statistika orqanlarının səlahiyyətlərinin həyata keçirilməsinə müdaxiləsi yolverilməzdir və onlara öz xidməti vəzifələrinin yerinə yetirilməsində təsir göstərmirlər.
>
> Proqramın həyata keçirilməsi, xüsusən də məlumat mənbələrinin, statistik metodların seçilməsi və məlumatların yayılması prosesi, onun məzmunu, forması, vaxtı və statistik məlumatların məxfiliyinin təmin olunması zamanı dövlət statistika orqanları müstəqildirlər və kənar təşkilatlardan bu işlərə dair göstəriş və təlimatlar qəbul etmirlər.

Dövlət Statistika Komitəsinin Əsasnaməsinin (24 noyabr, 2005-ci il) 9-cu paraqrafı göstərir ki, Dövlət Statistika Komitəsinin Sədri birbaşa Prezident tərəfindən təyin olunur, peşəkar, bacarıqlı işçilərin cəlb edilməsini və heyətin karyerasının artırılmasını istiqamətləndirir.

*Qeyd*: Dövlət Statistika Komitəsinin fəaliyyətini tənzimləyən qanunvericilik statistik məlumatların tərtib edilməsində hökumətin siyasi mövqeyindən Komitənin müstəqilliyini dəstəkləyir, statistik məsələlərdə Dövlət Statistika Komitəsinin müstəqilliyini təmin edən tələblərin tam riayət edilməməsi kimi, Dövlət Statistika Komitəsində və hökumətin digər təşkilatlarında missiya heç bir hal müşahidə etməmişdir.

### *1.1.2 Mənbələrin və statistik üsulların, habelə məlumatların yayılması haqqında qərarların seçilməsində yalnız statistik məqsədlər əsas götürülür.*

Qanunun 10-cu maddəsi istehlak qiymətləri indeksi məlumatlarının hazırlanması və yayılmasında mənbələrin və tələb edilən üsulların müstəqil seçilməsinin hüquqi əsasını təmin edir:

> Proqramın həyata keçirilməsi, xüsusən də məlumat mənbələrinin, statistik metodların seçilməsi və məlumatların yayılması prosesi, onun məzmunu, forması, vaxtı və statistik məlumatların məxfiliyinin təmin olunması zamanı dövlət statistika orqanları müstəqildirlər və kənar təşkilatlardan bu işlərə dair göstəriş və təlimatlar qəbul etmirlər.

Dövlət Statistika Komitəsinin Əsasnaməsinin (24 noyabr, 2005) 8-ci paraqrafı göstərir ki;

8.Azərbaycan Dövlət Statistika Komitəsi öz vəzifə və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqları vardır:
8.1 Azərbaycan Respublikasının iqtisadi və sosial vəziyyətinin nəticələri haqqında məlumat dərc etdirmək, statistika və qeydiyyat sahəsində metodoloji məsələləri işləyib hazırlamaq;
8.2 Statistika sahəsində işlərin yerinə yetirilməsi üçün məlumatların əldə edilməsinin mənbələrini və üsullarnı seçmək, məlumatların yayılmasının formasını və vaxtını müəyyən etmək...

*1.1.3 Müvafiq statistik qurum statistik məlumatların yanlış şərh edilməsi və onlardan düzgün istifadə edilməməsi haqqında şərhlər vermək hüququna malikdir.*

Dövlət Statistika Komitəsi "Rəsmi Statistika haqqında" Qanunda qeyd edilən öhdəliklər əsasında öz rəqəmlərinə dair kənar istifadəçilərin tənqidinə, adətən mətbuat vasitəsi ilə müvafiq olaraq cavab verir və cavab vermişdir:

"Dövlət statistika orqanlarında öz səlahiyyətləri çərçivəsində aşağıdakılar məsuliyyət daşıyırlar:
...
6. istifadəçilər tərəfindən statistik nəticələrin səhv şərh edilməsi hallarının qarşısının alınması məqsədi ilə onlara izahlar verir, kütləvi informasiya vasitələrində çıxışlar edirlər;" [Maddə 6. Dövlət statistika orqanlarnın vəzifələri]

## *1.2 Şəffaflıq*

*1.2.1 Statistik məlumatların toplanması, işlənilməsi və yayılmasının şərtləri və müddəti ictimaiyyətə açıqdır.*

"Rəsmi Statistika haqqında" Qanun (20 oktyabr, 2006-cı il düzəlişləri ilə) və Dövlət Statistika Komitəsinin Əsasnaməsi (24 noyabr, 2005) statistik məlumatların toplanması, işlənilməsi və yayılmasının şərt və qaydalarını geniş şəkildə şərh edir.

*1.2.2 Statistik məlumatların rəsmi dərc edilməsindən əvvəl onları hökumətdaxili istifadəçilər tərəfindən əldə etmək imkanı hamıya məlumdur.*

Aylıq istehlak qiymətləri indeksi bütün istifadəçilər üçün Dövlət Statistika Komitəsinin veb-saytı vasitəsi ilə eyni vaxtda dərc edilir.

*1.2.3 Statistika təşkilatlarının məhsulları dəqiq şəkildə müəyyən edilmişdir.*

Dövlət Statistika Komitəsinin bütün məhsulları, istehlak qiymətləri indeksi məlumatlarının Azərbaycanın Milli Bankının veb-saytında yenidən dərc edilməsi da daxil olmaqla, açıq müəyyən edilir.

*1.2.4 Metodologiyada, mənbə məlumatlarında və statistik üsullarda əsaslı dəyişikliklər haqqında öncədən məlumat verilir.*

İllik istehlak qiymətləri indeksinin yenidən təşkil edilməsinin konkret müəyyən edilmiş üsulu vardır. Dövlət Statistika Komitəsi istifadəçiləri bülletendə çıxacaq aylıq qiymət indeksində növbəti illik çəki üzrə baş verəcək yeniliklər haqqında bir ay öncə xəbərdar edir. Maddələrə illik olaraq baxılır və aktuallaşdırıla bilər. Aktuallaşdırma edildikdə, istifadəçilərə yanvarda

aktuallaşdırılmış maddə siyahısının həyata keçirilməsindən əvvəl qiymət statistikası bülleteninin dekabr buraxılışında (Yanvar-Noyabr məlumatlarını əks etdirən) xəbərdar edilir.

### *1.3 Etik standartlar*

*1.3.1 İşçi heyətin davranışı üzrə göstərişlər qaydasındadır və heyət onlarla yaxından tanışdır.*

"Rəsmi Statistika haqqında" Qanunun 25-ci Maddəsi bildirir ki:

> Dövlət statistika orqanları işçilərinin müəssisələrdə, idarələrdə və təşkilatlarda əvəzçilik üzrə işləməsi (elmi və müəllimlik fəaliyyəti istisna olmaqla), habelə hər hansı sahibkarlıq fəaliyyəti ilə məşğul olması qadağandır.

26-cı Maddə statistika qanununa riayət edilməməsi üzrə məsuliyyəti açıqlayır və "Rəsmi Statistika haqqında" Qanunun 28-ci Maddəsinə əsasən işçilər hətta Dövlət Statistika Komitəsini tərk etdikdən sonra belə məxfi məlumatları açıqlaya bilməzlər.

## 2. Metodologiyanın şəffaflığı

### *2.1 Konsepsiyalar və tariflər*

*2.1.1 Konsepsiyalar və təriflərin ümumi strukturu beynəlxalq səviyyədə qəbul olunmuş standartlara, göstərişlərə və ya yaxşı praktikalara uyğundur.*

İstifadə edilən konsepsiyalar və izahlar İstehlak Qiymətləri İndeksi üztə təlimatda müəyyən edilmiş beynəlxalq səviyyədə qəbul olunmuş standartlar və göstərişlərə uyğundur.

### *2.2 Statistik əhatə dairəsi*

*2.2.1 Əhatə dairəsi, ümumilikdə, beynəlxalq səviyyədə qəbul olunmuş standartlara, göstərişlərə və ya yaxşı praktikalara uyğundur.*

İstehlak qiymətləri indeksinin xərc konsepsiyaları milli hesablarda ev təsərrüfatlarının son istehlak xərcləri ilə əmtəə və xidmətlərin (işverənlərin natura ifadəsində kompensasiya kimi təmin etdiyi əmtəə və xidmətlər daxil olmaqla) bütün kateqoriyaları üzrə uyğun gəlir. Ev sahibi tərəfindən istifadə edilən yaşayış fonduna Dövlət Statistika Komitəsinin yanaşması impyutasiya edilmiş kirayə xərclərinə qismən istifadəçi xərc yanaşması kimi xarakterizə oluna bilər və bununla da impyutasiya edilən kirayə xərcləri Azərbaycan istehlak qiymətləri indeksinin əhatə dairəsindədir.

### *2.3 Təsnifat/sektorlar üzrə bölgü*

*2.3.1 İstifadə edilən təsnifat sistemləri/sektorlar üzrə bölgü beynəlxalq səviyyədə qəbul edilmiş standartlar, göstərişlər və ya yaxşı praktikalara uyğundur.*

İnstitusional vahidlər və satıcı ilə alıcı arasındakı sövdələşmələr Milli Hesablar Sistemi 1993-ə uyğun təsnifləşdirilir. COICOP-dan ev təsərrüfatlarının büdcə müayinəsi üçün 2002-ci ildən və istehlak qiymətləri indeksi üçün 2003-cü ildən təsnifat sistemi kimi istifadə olunur.

### *2.4 Uçotun əsasları*

*2.4.1 Axın və ehtiyatları qiymətləndirmək üçün bazar qiymətlərindən istifadə olunur.*

İstehlak qiymətləri indeksi çəkiləri üçün əsas olan ev təsərrüfatlarının büdcə müayinəsi və pərakəndə satış statistikası, həmçinin istehlak qiymətləri indeksi üzrə qiymətlərin toplanması istehlakı alıcılarının qiymətlərində ölçür.

*2.4.2 Uçot "hesablanmışdır" prinsipi əsasında aparılır.*

Xərclər və qiymət müşahidələri ev təsərrüfatları tərəfindən əldə edilən əmtəələrin və göstərilmiş xidmətlərin satın alındığı illərə və aylara aiddir.

*2.4.3 Ümumi və xalis dəyərlər göstəricilərinin hesablanması prosedurları beynəlxalq səviyyədə qəbul edilmiş standartlar, göstərişlər və ya yaxşı praktikalara uyğundur.*

Avtomobillərin, mebelin, cihazların və s. alınmasından ibarət uzun müddətli istifadə əşyaları üçün istehlak qiymətləri indeksi çəkiləri milli hesablardakı eyni maddələr üzrə xərclərlə uyğundur. Bu xərclər və istehlak qiymətləri indeksi çəkiləri bu cür hesablanır: yeni uzunmüddətli istifadə əşyaları üzrə xərclər +əldə etmələr/satınalmalar – ikinci dərəcəli bazarlarda uzunmüddətli istifadə əşyalarının məxaricləri. Bu çəkilər istehlakçı qiymət indeksində yeni uzunmüddətli istifadə əşyaları üçün qiymət indekslərinə tətbiq edilir.

## 3. Dəqiqlik və etibarlılıq

### *3.1 İlkin Məlumatın mənbəyi*

*3.1.1 İlkin Məlumatların toplanması ölkənin spesifik şəraitini nəzərə alan geniş məlumat proqramlarından əldə edilir.*

Ev təsərrüfatlarının büdcə müayinəsinin seçmə çərçivəsi 1999-cu ilin Əhalinin Siyahıyaalmasından alınmışdır və sayıcılar öz ərazilərində yeni ev təsərrüfatları aşkar etdiyi zaman aktuallaşdırılır. Ev təsərrüfatları büdcə müayinəsinin çərçivəsinin əhatəsi bütün ev təsərrüfatlarının 95%-dən artıq olaraq qiymətləndirilir. Müayinə hər rübdə 4400 ev təsərrüfatlarının seçməsi ilə aparılır, bu isə öz növbəsində istehlak qiymətləri indeksi çəkilərinin illik olaraq aktuallaşdırılmasına imkan verir. Müayinə şəhər və kənd ərazilərinin hər ikisini əhatə edir və regionlar üzrə stratifikasiya edilmiş sistematik təsadüfi seçmə üsulu

ilə ev təsərrüfatları seçilir. Bütün nağd şəkildə olan xərclər daxil edilir, alıcıların qiymətlərində ölçülür və şəxsi istehlak üçün istehsal edilən əmtəələr daxil edilərək, regionda alıcıların orta qiymətləri ilə dəyərləndirilir. Evləri sahibinə məxsus olan təsərrüfatların kirayə dəyəri və ev vahidlərinin xalis əldə etmələri xaric edilir. Dolğunluqla və ev təsərrüfatları büdcə müayinəsinin rüblük tezliyi ilə xüsusi müayinələrə ehtiyac yoxdur.

Qiymətlərin toplanılması, həmçinin yalnız geniş coğrafi məkanların çeşidini əhatə etmir, əmtəə və xidmətlərin çeşidini əhatə edir. 9,500 əmtəə və xidmətlərin bəziləri əhatə olunur, hansı ki, Dövlət Statistika Komitəsinin Ticarət Şöbəsinin müayinələrində satışların həcmləri ilə seçilir. Qiymətlər hər 54 regionda 569 müxtəlif məhsullar üzrə toplanır, hansı ki, hər ay 130,000-dən çox qiymət qeydiyyatını özündə birləşdirir. Müayinə satınalma nöqtəsi informasiyasını istifadə etmir, lakin indeksdə əhəmiyyətli xərc çəkisinin olduğu maddələr üçün kiçik hesab edilən bazarlıq üzrə istehlak qiymətləri indeksi əraziləri arasında ev təsərrüfatlarnın yer dəyişməsinin kəmiyyətini istifadə edir. Nəticədə, hər istehlak qiymətləri indeksi üçün indeksin hesablanmasında istifadə olunan qiymətlər yalnız o regiondandır.

İstehlak qiymətləri indeksi üçün həm ev təsərrüfatlarının büdcə müayinəsi, həm də pərakəndə ticarət məntəqəsi müayinəsi ev təsərrüfatlarının və pərakəndə satış məntəqələrinin müvafiq hədəf məcmuları ilə reprezentativ seçmələr təşkil edən müasir tərtibatlardan istifadə edilir. Ev təsərrüfatı bu cür davranışın mövzusu ola biləcək əhəmiyyətli xərc çəkisi olan maddələr qrupları üçün istehlakçı qiymət indeksi ərazilərinin içərisindən bazarlığın çatışmazlığı haqqında əsaslandırmanın yoxlanılması faydalı ola bilər. Bəzi ölkələrdə, "iri yeşik" və gipermarketlərin mövcudluğu bəzən bu fenomeni göstərə bilər. Bunun üçün məlumatlar ev təsərrüfatı büdcə müayinələrinə sorğu anketlərinin əlavə olunması ilə əldə edilə bilər.

*3.1.2 Təriflər, statistik əhatəlilik, təsnifatlar, qiymətləndirmələr və uçotun anına dair ilkin məlumatlar tələb olunan parametrlərə yaxındır.*

Ev təsərrüfatlarının büdcə müayinəsinin çərçivəsi istehlak qiymətləri indeksinin tələbləri ilə uyğundur. Istehlak qiymətləri indeksi pərakəndə satış məntəqəsi müayinəsində bütün ərzaq məhsulları üçün qiymətlər həftəlik toplanılır və demək olar bütün digər maddələr üçün aylıq toplanır. Qiyməti daha az tezliklə dəyişəcəyi bilinən maddələr və öncədən xəbərdar edilməsi vaxtında çox vaxt dəyişən maddələr, məsələn kommunal müəssisələr, təhsil və səhiyyə üzrə aylıqdan da az toplanılır, adətən, illik tezliklə.

Ev təsərrüfatlarının büdcə müayinəsi Azərbaycanda bütün rezidentlərin şəxsi evlərini əhatə edir, sahibləri qeyri-Azərbaycan vətəndaşları olan ev təsərrüfatları istisna olmaqla. 1999-cu il Əhalinin Siyahıyaalınması vətəndaşlıq haqqında sualı özündə əks etdirmədiyi üçün məxaric edilən proporsiya bilinmir, lakin geniş olmadığı nəzərdə tutulur. Sahibkarlıqla məşğul olan ev təsərrüfatları sahibkarlıq fəaliyyətləri və şəxsi istehlak üzrə ayrı məlumatla daxil edilib. Həbsxanalar, hərbi kazarmalar və internat məktəblər kimi qeyri-şəxsi ev təsərrüfatları istisna edilmişdir ki, bu da bu cür müayinələr üçün normaldır. Azərbaycanın bütün 11 iqtisadi rayonu nəşr səviyyəsində aqreqasiya edən Azərbaycanın daxilindəki bütün rayonları əhatə edir. Əmtəə və xidmətlərin alqı-satqısı üzrə bütün sövdələşmələr, habelə Milli Hesablar Sistemində (SNA 1993) son istehlak xərcinin bir hissəsi ev təsərrüfatı büdcə müayinəsində əhatə edilmişdir.

Əhatə olunan xərc maddələri üzrə ev təsərrüfatlarının son istehlak xərci ilə uyğun olan məlumatlardan istehlak qiymətləri indeksi çəkiləri Azərbaycanın 11 iqtisadi regionun hər biri üçün əldə edilir, hansı ki, şəxsi istehlak üçün ərzaq istehsalını və natura ifadəsində olan kompensasiyadan istehlakı özünə daxil edir. İndeks ev sahibinin yaşadığı mənzillərin kirayə dəyərlərini, habelə evlərin və mənzillərin xalis ev təsərrüfatı satınalmalarını istisna edir. Bununla belə, tikinti üçün materiallar üzrə xərci özündə birləşdirir. Bu evlərin saxlanması, təmiri və yerləşmə vahidi üzrə əsaslı abadlıqların (ev təsərrüfatları üzrə əsas kapital formasiyası xərci komponenti üzrə) ev sahiblərinin mənzildə yerləşmə xərcələri üçün qismən qiymətləndirməni təmin edir (ev təsərrüfatları tərəfindən yerləşmə xidmətlərinin son istehlak komponenti, sonuncusu istifadəçinin xərc metodu vasitəsi ilə hesablanır).

İstehlak qiymətləri indeksi müayinəsi 54 regionda pərakəndə satış məntəqələrini təmsil edir, bunlar isə öz növbəsində nəşr zamanı bütün Azərbaycan üzrə 11 iqtisadi region səviyyəsində aqreqasiya olunur. Qiymətlər hər bir qiymətqoyma məntəqəsində müxtəlif çeşiddə məhsullardan toplanılır, beləliklə, indeks bütün Azərbaycan üzrə və hər bir 11 iqtisadi region üzrə qiymət dəyişikliklərini təmsil edir.

*3.1.3 İlkin məlumatlar vaxtlı-vaxtında daxil olur.*

Əvvəlki il üçün ev təsərrüfatlarının büdcə müayinəsi məlumatlarından istifadə etməklə, növbəti ilin fevral ayı üzrə istehlak qiymətləri indeksi üçün çəkilər tərtib edilir və Aprel ayının dərcində mart ayının istehlak qiymətləri indeksi məlumatına birləşdirilir. Əvvəlki ay üzrə qiymətlər növbətiayın beş günü ərzində toplanılır.

### *3.2 İlkin məlumatların qiymətləndirilməsi*

*3.2.1 İlkin məlumatlar, o cümlədən siyahıyaalmalar, seçmə müayinələr və inzibati mənbə məlumatları daxil olmaqla – müntəzəm olaraq qiymətləndirilir, məsələn, əhatə dairəsi, seçmə xətası,respondentlərin səhvləri və s.;belə qiymətləndirmələrin nəticələri statistika prosesində işlənilir və nəzərə alınır.*

Ev təsərrüfatlarının büdcə müayinəsində cavabların səviyyəsi yüksəkdir, lakin içərisindən maddə üzrə cavabın olmaması hallarının gözlənilən miqdarı və daha çox həssas olan sualların bəzilərinin aşağı səviyyədə cavablandırılması və yüksək və aşağı gəlir qruplarında uyğunsuzluq halları mövcuddur. Bu müntəzəm olaraq yoxlanılır. Dövlət Statistika Komitəsi, həmçinin maddələr üzrə cavabın olmaması halının həlli üçün beynəlxalq konfranslarda və peşəkar ədəbiyyatda olan metodoloji təkmilləşdirmə haqqında məlumatlıdır. İstehlak qiymətləri indeksi qiymət nəticələri maddələrinin müvəqqəti və ya daimi yoxa çıxması haqqında qiymətləndirmək üçün yaxından yoxlanılır. Maddələrin seçilməsinə illik olaraq yenidən baxılır və tələb olduğu halda aktuallaşdırılır. Pərakəndə satış məntəqəsi üzrə müayinə məntəqələrinin sahibkarlıqdan uzaqlaşması və ya yerlərinin dəyişməsi ilə əlaqədar olaraq daima genişləndirilir.

## *3.3 Statistik üsullar*

*3.3.1 Tətbiq edilən statistik metodlar əsaslandırılmış prosedurlara uyğundur.*

Ev təsərrüfatlarının büdcə müayinəsi 2002-ci ilin əvvəlindən etibarən xərc üzrə məlumatları COICOP təsnifatının 5 rəqəmli səviyyəsində toplayır. İstehlak qiymətləri indeksi çəkiləri Milli Hesablar Sistemi 1993-də ölçülən ev təsərrüfatı istehlakına əsaslanır, hansı ki, mənzilin təmin edilməsi üzrə materialların xərclərini və mənzilin təmiri və saxlanılması xərcləri ilə birgə nəzərdə tutulur və bu ev sahibinin mənzil üzrə kirayəsini əvəz edir.

Dəyərləndirmə şəxsi istehlak üçün istehsal daxil olmaqla, alıcıların qiymətlərində aparılır.

2005-ci ildən etibarən, ilkin səviyyədə olan indekslər müşahidə edilən əmtəə qiymət nisbətlərinin geometrik vasitələrindən istifadə etməklə hesablanır.

Modifikasiya edilmiş Laspeyres düsturundan aqreqat indekslərini hesablamaq üçün istifadə olunur və indeks əvvəlki ilin ev təsərrüfatı büdcə müayinəsindən əldə edilən çəkilərdən istifadə etməklə, hər ilin Fevral-Mart aylarında yenidən əsaslandırılır. O, Mart indeksinə qoşulur/əlaqələndirilir.

Müvəqqəti olaraq çatışmayan qiymətlər qrup şəklində yanaşmadan istifadə etməklə impyutasiya olunur. Bu yanaşma alt qrupda digər maddələrin orta qiymət dəyişməsindən istifadə etməklə çatışmayan qiymətin dəyərləndirilməsinə əsaslanır – və məhsul yenidən meydana çıxırsa, onun müşahidə olunan qiymətindən istifadə etməklə, hesablama prosesi qayıdır. Impyutasiyalar eyni qrupun orta alqoritmindən istifadə etməklə mövsümi məhsullar üçün edilir. Daimi olaraq mövcud olmayacaq məhsullar əvəz edilir və qiymət dəyişilməsində yeni (müqayisə olunmaz) yerdəyişmələr üsulundan istifadə etməklə əlaqələndirilir. Keyfiyyətin dəqiq təyinindən istifadə etməklə, qiymətlərin müqayisəsi əldə olmayan məmulatlar və onların müqayisə olunmaz yerdəyişmələri arasında aparılmır. 2008-ci ilin yanvar ayında doqquz yeni məhsul növü əlavə olunmuş və 25 köhnə məhsul artıq reprezentativ olmadığı üçün səbətdən çıxarılmışdır.

Qiymətlərin toplanması üçün istifadə olunan əmtəə spesifikasiyaları kifayətdir ki, aydan-aya müqayisə olunan eyni maddələrin qiymətləri təmin edilsin.

*3.3.2 Digər statistik prosedurlar zamanı (məsələn, məlumatlara düzəlişlərin, təshihlərin edilməsi və statistik təhlil) əsaslı statistik üsullarından istifadə olunur.*

İllik əsaslandırılmış indeksi əlaqələndirərkən (beynəlxalq səviyyəli standart metodologiya) çəkilərin hesabat dövrünə uyğun olaraq qiymət münasibətlərinin hesabat bazasına düzəliş edilir.

İstehlak qiymətləri indeksində əhatə edilən xərclər ev təsərrüfatının son istehlak xərcində əhatə edilən xərclərlə eynidir, sahibinin yaşadığı evin bərpası üzrə xərclər istisna olmaqla. İstehlakçı qiymət indeksində olan ev sahibinə məxsus evdə xərclər evin saxlanılması və

təmiri üçün çəkilən xərclərlə təmsil olunur (COICOP 04.3). Milli hesablarda ev sahibinə məxsus ev üzrə xərclər impyutasiya edilmiş kirayə xərcləridir (COICOP 04.2).

Ev sahibinə məxsus ev təsərrüfatlarının impyutasiya edilmiş kirayə xərcinin ölçülməsi ilə əlaqədar iki yanaşma vardır: kirayə xərci ekvevalenti və istifadəçi xərci. İdeal ölçü şərtlərində belə oxşar cavablar alınacaq.

Kirayə xərci ekvevalenti ev sahibi olan şəxslərin impyutasiya xərclərinin tərtib edilməsi üçün ən birbaşa olan üsuldur. Ev sahibinin yaşadığı ev vahidinin kirayə xərci dəyəri buna çox bənzər olan kirayələnmiş ev vahidi üzrə faktiki kirayə xərci kimi impyutasiya edilir. Bu metod , Azərbaycanın hər bir rayonu daxilində kirayələnmiş ev vahidi üzrə orta kirayə xərcini götürməklə və həmin rayonda hər bir ev sahibinə məxsus ev vahidi üzrə impyutasiya etməklə, impyutasya edilmiş kirayə xərcləri üzrə Dövlət Statistika Komitəsinin tərtib etdiyi milli hesablar üçün istifadə olunur.

Ev sahiblərinin impyutasiya olunmuş kirayə xərclərinə alternativ yanaşma istifadəçi xərci metodudur, hansı ki, mülkiyyət komponentlərinin xərcindən ev sahibinə malik evin xərc dəyərini formalaşdırır. Beləliklə, şəxsi evin ev sahibi, mülkiyyətçisi onu saxlamalı və təmir etməlidir (hansı ki, Dövlət Statistika Komitəsinin cari CPI, COICOP 04.3 təsnifatında tikinti materialları və saxlanılma xidmətləri maddələrindən ibarətdir). Buna baxmayaraq, mülkiyyətçi nə qədər ki evə sahibdir, vahidi bazar dəyərindəki hər hansı artımdan faydalanır və beləliklə, bu qiymət yuxarıda qeyd olunan xərclərdən çıxılır ki, mülkiyyətçi vahidi satarkən mülkiyyətçi kirayə haqqını qarşılaya bilsin və yenidən kirayəyə versin. COICOP xərc təsnifatı nöqteyi nəzərdən bu qeyd olunmalıdır.

COICOP 04.2 İmpyutasiya edilmiş kirayə xərcləri =

Evə yatırılmış fondların real faizi (vahidin cari bazar dəyərində)

+ COICOP 04.3 Evin saxlanılması və təmiri üzrə xərclər,

Burada "yaşayış üçün vəsait ayıran fondlar üzrə faizin fəal stavkası" gözlənilən qiymətləndirmə ilə investisiya şəklində qoyulmuş maliyyə kapitalının faizi arasındakı fərqdir. Dövlət Statistika Komitəsi COICOP 04.3 üçün hazırda ümumi istehlak qiymətləri indeksini nəşr edir (evin saxlanılması və təmiri). Dövlət Statistika Komitəsinin istehlak qiymətləri indeksi bununla da mənzildə yaşama üzrə istifadəçi xərcinin saxlanılma və təmir xərci komponentini əhatə edən ev sahibinə malik evə qismən istifadəçi xərci yanaşmasını əhatə edir, bu məqam Azərbaycan üçün 2002-ci il məlumatın ətraflı qiymətləndirilməsində Standartlara və Məcəllələrə Riayət üzrə Hesabatının ətraflı qiymətləndirilməsində qeyd olunub.

İstehlak qiymətləri indeksində impyutasiya olunmuş kirayəni əhatə etməyin bir neçə variantı mövcuddur. Istehlak qiymətləri indeksi milli hesabların impyutasiya olunmuş kirayə xərcləri qiymətləndirməsindən çəki kimi istifadə edə bilər. Bu, istehlak qiymətləri indeksinin əhatə olunmasını ev təsərrüfatının son istehlak xərci ilə tam uyğun olmasını təmin edəcək. İmpyutasiya olunmuş kirayə xərci ilə əlaqədar olaraq, birbaşa variantlar kimi istehlak

qiymətləri indeksi saxlanılma və təmirin qiymət indeksini qismən istifadəçi xərci qiyməti kimi istifadə edə bilər, bu faktiki kirayə xərclərinə əsaslanan qiymət indeksini istifadə edə bilər. İstehlak qiymətləri indeksindən son dəfə nəşr edilən məlumatlar faktiki kirayə xərclərində daha aşağı inflyasiyanı göstərir, hansı ki, evin saxlanılması və təmirinin meydana gətirən maddələrdə inflyasiya yerinə kirayə xərci ekvevalenti yanaşmasında ev sahibinin mülkiyyətində olan ev təsərrüfatlarına impyutasiya ediləcək. Həm saxlanılma və təmir, həm də faktiki kirayə xərcləri məlumatları impyutasiya olunmuş kirayə xərcləri çəkisinin dəyişdirməsi üçün istifadə edilməzdən əvvəl qiymətləndirilməlidir. Saxlanılma və təmir istifadəçi xərcinin real faiz komponentini istisna edir və kirayə xərci üzrə seçmə ev sahibinin mülkiyyətində olan evin ehtiyatının kirayə dəyərindəki dəyişikliyin reprezentativliyi üçün yoxlanılmalıdır. Ümumi indeksə olan təsir aparılacaq qiymətləndirmə yanaşmasından və milli hesablarda impyutasiya olunan kirayə dəyərinin (COICOP 04.2) indeksdə hazırda istifadə edilən evin saxlanılması və təmir qiymətindən (COICOP 04.3) yuxarı və ya aşağı olmasından asılı olacaq.

İstehlak Qiymətləri İndeksinin Metodologiyası kitabında (fəsil 14) istehlak qiymətləri indeksində ev sahibinin mülkiyyətində olan ev təsərrüfatı üçün digər konsepsiya təsvir olunmuşdur, bəzən buna xalis əldə etmələr yanaşması deyirlər. Bu konsepsiya milli hesablardan ev təsərrüfatı rezident kapital formasiyasına ekvivalentdir. Ona görə də o, kirayə ekvevalenti və istifadəçi xərc yanaşmaları ilə müqayisə edilir, hansı ki, hər ikisi milli hesablarda ev təsərrüfatı xidmətləri konsepsiyasının son istehlakının dəyərini qiymətləndirir. Baxmayaraq ki, ev təsərrüfatı rezident kapital formasiyası müxtəlif konsepsiyadır, onun çəkisi və qiymətinin ölçülməsi asan olan bilər. Çəki növ və yerləşmə vahidi üzrə ev təsərrüfatları üzrə evlərin xalis əldəetmə dəyərləri + mövcud yerləşmə vahidlərində əsaslı bərpalardan ibarətdir. Bu çəki ev təsərrüfatı büdcə müayinələrində əlavə suallar salmaqla qiymətləndirilə bilər. Belə ki, ev təsərrüfatlarından bərpa işləri üzrə əldə edilən əmtəə və xidmətlərin dəyərləri haqqında, eyni maddələrin saxlanılma və təmir üzrə alınmasına qarşılır olaraq soruşmaq olar, hansı ki, artıq ev təsərrüfatı büdcə müayinəsinə daxil olunmuşdur. Qiymət növ və məkan üzrə ev təsərrüfatları vahidlərinin satınalma qiymətidir. Ev qiymətindəki dəyişiklik Azərbaycanın iri şəhərlərində artıq əhəmiyyətli olduğu düşünülür. Cari istehlak qiymətləri indeksinin istehlak orientasiyasını saxlamaq üçün nəzərdə tutulan ayrıca bir göstərici kimi Dövlət Statistika Komitəsinin işçiləri ev qiymət indeksini gələcək mümkün statistika məhsulu olaraq güman edirlər.

*Tövsiyə:* Dövlət Statistika Komitəsi texniki cəhətdən kirayə xərci ekvevalenti və istifadəçi xərc yanaşmalarını qiymətləndirməlidir ki, öz mülkiyyətində olan ev təsərrüfatlarının yerləşmə xidmətləri istehlakını və evlər üçün ev təsərrüfatlarının kapital formasiyası xərclərinə xalis əldəetmələr yanaşmasını əhatə etsin. Qiymət statistikası şöbəsi, Milli hesablar şöbəsi və Elmi-metodoloji Şura ilə əməkdaşlıq əsas olması ilə yanaşı, Dövlət Statistika Komitəsinin xüsusi məsləhət ekspert qrupu və ev təsərrüfatı üzrə kənar ekspertlərin işi faydalı ola bilər.

### *3.4 Aralıq və son statistik məlumatların qiymətləndirilməsi və düzgünlüyünün yoxlanılması*

*3.4.1 Aralıq nəticələr digər uyğun informasiyalarla tutuşdurulur.*

İstehlak qiymətləri indeksindəki dəyişikliklər müqayisə edilən kateqoriyalar üçün istehsalçıların qiymət indeksi qarşılığında qarşıdan-qarşıya yoxlanılır.

Müqayisələr müqayisə edilmiş indekslər arasında qiymət dəyişikliklərini geniş şəkildə göstərirlər.

*3.4.2 Aralıq məlumatlardakı statistik fərqlər qiymətləndirilir və araşdırılır.*

Qeyri-adi qiymət dəyişiklikləri sabit şəkildə yoxlanılır ki, onların məlumatların daxil olunması zamanı meydana çıxması, əmtəənin düzgün spesifikasiya olunmaması və ya müəyyən region üzrə xüsusi problemim olub-olmaması müəyyən edilsin. Qeyri-adi hesabatlar regional və ya rayon meneceri ilə düzgünlüyü yoxlanılır və lazım gəldikdə bu proses qiymət toplayanlarla aparılır.

*3.4.3 Son statistik məlumatlarda statistik fərqlər və problemlərin mövcudluğunu göstərən digər göstəricilər araşdırılır.*

Qeyri-adi coğrafi trendlərin real vəziyyətə uyğun olmasını təmin etmək üçün yoxlanılır.

### *3.5 Məlumatlara yenidən baxılmanın təhlili*

*3.5.1 Yenidən baxmaların nəticələri öyrənilir və müntəzəm olaraq təhlillər aparılaraq daxili statistik işlərdə nəzərə alınır (bax, həmçinin 4.3.3).*

Xətaları düzəltmək üçün yoxlamalar olur. Dövlət Statistika Komitəsi istehlak qiymətləri indeksi çəkilərindəki dəyişikliklərə və məhsul payında dəyişikliyin miqdarına hər il illik bazanın təşkil edilməsində yenidən baxır. Dövlət Statistika Komitəsi maddə üzrə seçməni illik əsasda yoxlayır və zəruri olarsa, düzəlişlər verir.

## 4. Praktiki yararlılıq

### *4.1 Dövrilik və vaxtında olma*

*4.1.1. Dövrilik məlumatların yayımlanması standartına uyğundur*
İstehlak qiymətləri indeksinin dövriliyi aylıqdır və məlumatların yayılmasının xüsusi standart tövsiyələrinə uyğundur.

*4.1.2 Məlumatların vaxtında olması məlumatların yayılması standartına uyğundur.*

Aylıq rəqəmlər növbəti ayın 12-15 günləri arasında nəşr edilir, bu da, məlumatların yayılması üzrə xüsusi standartın bir aylıq tələbi daxilindədir.

### *4.2 Müqayisəlilik*

*4.2.1 Statistik məlumatlar sistemi daxili müqayisəliliyi ilə xarakterizə edilir.*

İstehlak qiymətləri indeksi məhsul və region üzrə daxilən uyğundur (istehlak qiymətləri indeksi regionu, iqtisadi rayon və Azərbaycan).

*4.2.2 Statistik məlumatlar münasib vaxt dövrü ərzində müqayisəlidir və ya uzlaşdırılmışdır.*

Dinamika sıraları 1995-ci ildən mövcuddur, nə vaxt ki, istehlak qiymətləri indeksi ilk dəfə rəsmi nəşr olunmuşdur. Nisbətən aşağı keyfiyyətli qeyri-rəsmi məlumatlar 1990-cı ildən mövcuddur. Metodologiya qeydləri İllik Statistik Məcmuədə nəşr olunur, həmçinin trendlər üzrə qeydləri özünə daxil edir.

*4.2.3 Statistik məlumatlar digər məlumat mənbələrindən əldə edilmiş məlumatlarla uzlaşır və (və ya)müqayisə edilə bilir .*

İstehlak qiymətləri indeksi milli hesabların ev təsərrüfatlarının son istehlak xərci ilə konsepsiya cəhətdən uyğundur, yəni ev sahibinə məxsus ev təsərrüfatı ilə çox cüzi fərq vardır. Uzlaşdırma - bunun üçün mümkün hesablamadır. Milli hesablar şöbəsi pərakəndə ticarət müayinəsinin yekunlarına görə, ev təsərrüfatlarının büdcələrinin müayinəsindən əldə olunan müqayisəli yekun məlumatları təshih edir. Bu redaktələr nəzərə alınaraq ev

təsərrüfatlarının büdcələri müayinəsinə dair ev təsərrüfatları anketlərində xüsusi maddələr üzrə müvafiq düzəliş edilir.

### *4.3 Məlumatlara yenidən baxma: siyasət və praktika*

*4.3.1 Məlumatlara yenidən baxılmalar müntəzəm və şəffaf qrafikə əsasən aparılır.*

İndeks illik olaraq yenidən qurulur və müxtəlif nəşrlərdə nəşr edilir.

*4.3.2 İlkin və/və ya düzəliş edilmiş məlumatlar olduqda onlar o cür də, aydın şəkildə qeyd edilir.*

Texniki düzəliş zamanı əsasın yenidən qurulması istehlak qiymətləri indeksi istehsalının normal hissəsidir və məlumatı ilkin olaraq müəyyən etməyə ehtiyac yoxdur.

*4.3.3 Düzəlişlərin təhlilləri ictimaiyyətə açıqlanır (həmçinin bax 3.5.1).*

Aprel ayında hər ilin yenidən qurulmuş çəkisini göstərən aylıq bülletendə payda maddələr artımı və azalma haqqında qısa məlumat verilir, istiqamət baxımından bu miqdar deyil.

## 5. Məlumatları əldə etmək imkanı

### *5.1 Məlumatları əldə etmək imkanı*

*5.1.1 Statistik məlumatlar düzgün şərhlər və faydalı müqayisələrin aparılmasını təmin edəcək şəkildə təqdim olunur (mətnin, cədvəllərin və qrafiklərin tərtibatı və aydınlığı).*

İstehlak qiymətləri indeksi məlumatları 569 adda məhsul və xidmət üçün 11 iqtisadi region üzrə nəşr edilir, hansı ki, bəzi nəşrlərdə qrafiklər yer alır. Meydana çıxan dəyişikliklər üzrə bəzi şərhlər verilir. Mövsüm üzrə düzəliş edilməmiş məlumatlar çap edilmir. Ev təsərrüfatı müayinəsindən mövcud olan nəşr olunmuş xərc qiymətləri COICOP təsnifatının iki rəqəmli səviyyəsində istehlak qiymətləri indeksi çəkiləri haqqında məlumatı təmin edir.

*5.1.2 Məlumatların yayılma vasitələri mediası və forması müvafiq şəkildədir.*

Dövlət Statistika Komitəsi tərəfindən aylıq nəşrlər, adətən ayın 12-ci günü buraxılır, lakin ondan öncə elektron formatda (pdf.) mövcud olur. İngilis dilində olan cədvəllər veb-saytın Məlumatların Yayılmasının Xüsusi Standartı bölməsində verilir ki, ilkin olaraq həmin qrup istifadəçilər üçün çaşdırıcı olur.

Qeyd: Azərbaycan dilində olan nəşrlər vaxtlı-vaxtında olur və ətaflı məlumatların kifayət qədər miqdarını təqdim edir, cədvəllər və elektron sənədlər Dövlət Statistika Komitəsində əsaslı şəkildə yaxşı təşkil olunur. İngilis dilli istifadəçilər üçün çox sayda veb-sayt səhifələrinin olması ilə əsaslı yaxşı dəstək vardır, lakin materialın təşkil edilməsi daha məntiqli ola bilər.

*5.1.3 Statistik məlumatlar öncədən elan verilmiş qrafik üzrə buraxılır.*

Statistik məlumatlar müntəzəm və tez olaraq növbəti ayın 12-dən 15-nə qədər olan müddətdən gec olmayaraq istehsal olunur, həftəsonları və bayramlar da nəzərə alınmaqla, çox vaxt bu müddətdən tez olur. Nəşr üzrə maksimum interval İllik Statistik Proqramda qeyd olunmuşdur. Buna baxmayaraq, ilkin buraxılış təqvimi görüş vaxtından ən azı üç ay olaraq buraxılış tarixlərini əks etdirmir və buraxılışdan əvvəlki həftənin sonuncu iş günündən "gec olmayaraq" tarixindən dəqiq tarixə kimi dəyişdirilmir.

Dövlət Statistika Komitəsi seçməni 8 aylıq dövrü əhatə etməklə, 2008-ci ilin Yanvar ayında sona çatan ilkin buraxılış təqvimindən "gec olmayaraq" web-saytda SDDS formatda nəşr etmişdir. Buraxılışdan əvvəlki həftənin son iş gününə buraxılış tarixinin Dövlətstatkom tərəfindən yeniləşdirilməməsi istisna olmaqla, format SDDS-in tələblərinə cavab verir. SDDS tələblərinə tam uyğun olmaq üçün, buraxılış tarixindən sonra 3 aylıq müddət ərzində buraxılışların təqvimi aktual olmalıdır.

Tövsiyələr: SDDS ilkin buraxılış təqviminin cariliyini saxlayaraq və istifadiçilər arasında bu sayt haqda məlumatlılığı artıraraq CPİ-in şəffaflıq və professionallıq şəraitində tərtib olunması haqda istifadəçilərdə inamın yüksəlməsinə kömək edəcəkdir və bu təcrübəni SDDS tələblərinə uyğunlaşdıracaqdır.

*5.1.4 Statistik məlumatlar bütün istifadəçilərə eyni vaxtda təqdim olunur.*

Statistik məlumatlar çox vaxt bütün istifadəçilərə Dövlət Statistika Komitəsinin veb-saytında yerləşdirilməklə eyni vaxtda çatdırılır.

*5.1.5 Adi yayım prosesi çərçivəsində açıqlanmayan məlumatlar müraciət əsasında təqdim olunur.*

Nəşr olunmamış cədvəllər məxfiliyi pozmadıqda istifadəçilərə təqdim oluna bilər (maddə 22, "Rəsmi Statistika haqqında" Qanun), lakin istehlak qiymətləri indeksi məlumatları ətraflı məlumatların yüksək səviyyəsində (569 maddə) nəşr edilir. Bununla belə, daxilən mövcud olan ətraflı məlumatların eyni səviyyəsində olan indeks çəkiləri mövcud deyil.

"Rəsmi Statistika haqqında" Qanunun 22-ci maddəsində qeyd edilir ki, "aqreqatlar ən azı üç vahiddən ibarət olmalı və bir vahidin payı ümumi cəmi payda 85%-dən çox olmamalıdır". Dövlət Statistika Komitəsi bu açıqlama meyarının bütün nəşrlərdə necə riayət olunmasında qərar qəbul edir. Ev təsərrüfatı büdcə müayinəsi COICOP təsnifatının 2 rəqəmli səviyyəsində nəşr olunur və müraciət üzrə ev təsərrüfatlarının daha ətraflı səviyyələrdə mövcud ola bilər.

### 5.2 Metaməlumatları əldə etmək imkanı

*5.2.1 Konsepsiyalar, əhatə dairəsi, təsnifatlar, uçotun əsasları, məlumat mənbələri və statsitik üsullar üzrə sənədlər mövcuddur, beynəlxalq səviyyədə qəbul edilmiş standartlardan, qaydalardan kənarlaşmalar haqqında isə qeydlər vasitəsi ilə məlumat verilir.*

Metaməlumatlar 2001-ci ilin Fevral ayından BVF-nin Məlumatların Yayılmasının Ümumi Sistemi veb-saytında yerləşdirilmişdir və ən son 2007-ci ilin noyabr ayında yeniləşdirilmişdir.

*5.2.2 Məlumatların ətraflılıq səviyyəsi nəzərdə tutulan istifadəçi auditoriyasının eyhtiyaclarına uyğundur.*

Aylıq istehlak qiymətləri indeksi nəşrində ətraflı məlumatlar mövcuddur, habelə yüksək aqreqasiya və aqreqasiyanın aralıq səviyyələrində olan statistik məlumatlar da, həmçinin mövcuddur.

### 5.3 İstifadəçilərə yardım

*5.3.1 Hər bir sahə üzrə əlaqə üçün qeydlər nəşr olunur.*

Aylıq və illik qiymət nəşrlərində əlaqə üçün şəxslərin adları və telefon nömrələri nəşrlərdə nəşr edilir.

*5.3.2 Nəşrlərin, sənədlərin və digər xidmət növlərinin kataloqları mövcuddur və əlverişlidir.*

"Statistik Nəşrlərin Kataloqu" çap olunmuş formada və Dövlət Statistika Komitəsinin veb-saytında illik olaraq mövcuddur. Burada əlaqə üçün ünvanlar, telefon nömrələri və Dövlət Statistika Komitəsinin məhsullarının gözlənilən nəşr tarixləri göstərilir.

Cədvəl 1. Azərbaycan: Məlumat Keyfiyyətinin Qiymətləndirmə Çərçivəsi (Fevral 2007): Qiymət Statistikası üzrə Nəticələrin Xülasəsi

(İstehlak Qiymətləri İndeksi)

*(Tərtib edən təşkilat: Dövlət Statistika Komitəsi )*

**Simvolların açıqlaması: NA = Yoxdur; O = Müşahidə olunan praktika; LO = Geniş müşahidə olunan praktika; LNO =Geniş müşahidə olunmayan praktika; NO =Praktika müşahidə olunmayıb; SDDS = Məlumatların yayılmasının xüsusi standartının meyarı ilə tərtib edilir**

| **Element** | **NA** | **Qiymətləndirmə** | | | | **Qeydlər** |
|---|---|---|---|---|---|---|
| | | **O** | **LO** | **LNO** | **NO** | |
| **0. Keyfiyyət üçün ilkin şərtlər** | | | | | | |
| 0.1 Hüquqi və institusional mühit | | X | | | | |
| 0.2 Resurslar | | X | | | | |
| 0.3 Aktuallıq | | | X | | | Statistik Şura inflyasiya haqqında istifadəçilərin fikirləri və iradları baxımından Dövlət Statistika Komitəsini Statistika Şurası inflyasiya haqqında istifadəçilərin fikirləri və iradları baxımından Dövlət Statistika Komitəsinə məlumat verən mənbə kimi daha aktiv istifadə edə bilər. |
| 0.4 Keyfiyyətin idarəedilməsinin digər aspektləri | | X | | | | |
| **1. Qərəzsizliyin təminatı** | | | | | | |
| 1.1 Peşəkarlıq | | X | | | | |
| 1.2 Şəffaflıq | | X | | | | |
| 1.3 Etik standartlar | | X | | | | |
| **2. Metodologiyanın şəffaflığı** | | | | | | |
| 2.1 Konsepsiyalar və təriflər | | X | | | | |
| 2.2 Əhatə dairəsi | | X | | | | |
| 2.3 Təsnifat/sektorlar üzrə bölgü | | X | | | | |
| 2.4 Uçotun əsasları | | X | | | | |
| **3. Dəqiqlik və etibarlılıq** | | | | | | |
| 3.1 İlkin Məlumatın mənbəyi | | X | | | | |
| 3.2 İlkin məlumatın qiymətləndirilməsi | | X | | | | |
| 3.3 Statistik üsullar | | | X | | | Öz evlərinə sahib olan ev təsərrüfatlarının impyutasiya olunmuş kirayə xərclərinə olan istehlak qiymətləri indeksinin de fakto yanaşması milli hesablar yanaşmasına uyğun gəlmir. |
| 3.4 Aralıq və son statistik məlumatların qiymətləndirilməsi və düzgünlüyünün yoxlanılması | | X | | | | |
| 3.5 Məlumatlara yenidənbaxılmanın təhlili | | | | | | |
| **4. Praktiki** | | | | | | |
| 4.1 Dövrilik və vaxtında olma | | X | | | | |
| 4.2 Müqayisəlilik | | X | | | | |
| 4.3 Məlumatlara yenidənbaxma: siyasət və praktika | | X | | | | |

Cədvəl 1. Azərbaycan: Məlumat Keyfiyyətinin Qiymətləndirmə Çərçivəsi (Fevral 2007): Qiymət Statistikası üzrə Nəticələrin Xülasəsi

(İstehlak Qiymətləri İndeksi)

*(Tərtib edən təşkilat: Dövlət Statistika Komitəsi )*

**Simvolların açıqlaması: NA = Yoxdur; O = Müşahidə olunan praktika; LO = Geniş müşahidə olunan praktika; LNO =Geniş müşahidə olunmayan praktika; NO =Praktika müşahidə olunmayıb; SDDS = Məlumatların yayılmasının xüsusi standartının meyarı ilə tərtib edilir**

| **Element** | **NA** | **Qiymətləndirmə** | | | | **Qeydlər** |
|---|---|---|---|---|---|---|
| | | **O** | **LO** | **LNO** | **NO** | |
| **5. Məlumatları əldə etmək imkanı** | | | | | | |
| 5.1 Məlumatları əldə etmək imkanı | | | X | | | Məlumatların buraxılışı vaxtlı-vaxtında və ardıcıl, habelə Dövlətstatkomun veb-saytında SDDS formatında buraxılışa dair planın plmasına baxmayaraq, bunlar təkmilləşdirilməmişlər. Beləliklə, istifadəçilər İQİ-nin nə zaman açıqlanacağını bilsələr də, bu praktika SDDS-in, yəni Məlumatların Yayılmasının Xüsusi Standartlarının tələblərinə uyğun deyil. |
| 5.2 Metaməlumatları əldə etmək imkanı | | X | | | | |
| 5.3 İstifadəçilərə yardım | | X | | | | |

## Əlavə I. Məlumatların Keyfiyyətinin Qiymətləndirilməsi Çərçivəsi -Struktur Çərçivə

| Keyfiyyət ölçüləri | Elementlər | Göstəricilər |
|---|---|---|
| **0. Keyfiyyət üçün ilkin şərtlər** | **0.1 Hüquqi və institusional mühit**—Mühit statistik məlumatları dəstəkləyir. | 0.1.1 *Statistik məlumatların toplanılması, işlənilməsi və yayılmasına dair məsuliyyət dəqiq müəyyənləşdirilib.*<br><br>0.1.2 *Məlumatların mübadiləsi və məlumat istehsal edən təşkilatlar arasında koordinasiya tələblərə cavab verir.*<br><br>0.1.3 *Hesabat verən fərdi şəxslərin məlumatları məxfi saxlanılır və yalnız statistik məqsədlər üçün istifadə olunur.*<br>0.1.4 *Statistik hesabatların verilməsi hüquqi mandat və/və ya cavablandırmanı həvəsləndirən tədbirlər vasitəsilə təmin edilir* |
| | **0.2 Resurslar**—Resurslar statistik proqramların ehtiyaclarına uyğundur. | 0.2.1 *İşçi heyəti, vasitələr,hesablama resursları və maliyyələşdirmə statistik proqramlara müvafiqdir.*<br><br>0.2.2 *Resursların səmərəli istifadəsini təmin etmək üçün tədbirlər yerinə yetirilir.* |
| | **0.3 Aktuallıq**—Statistik məlumatlar sahə üzrə müvafiq informasiyanı əhatə edir. | 0.3.1 *İstifadəçilərin tələblərinin ödənilməsi üçün cari statistik məlumatların aktuallığı və praktiki faydalılığı üzərində nəzarət həyata keçirilir.* |
| | **0.4 Keyfiyyətin idarəedilməsinin digər aspektləri -** Keyfiyyət statistik işlər əsasını təşkil edir. | ***0.4.1*** *Keyfiyyət məsələləri üzərində diqqəti cəmləşdirmək üçün prosedurlar mövcuddur.*<br><br>0.4.2 *Statistik proqramın keyfiyyətini yoxlamaq üçün prosedurlar mövcuddur.*<br><br>0.4.3 *Statistik proqramın planlaşdırılması zamanı keyfiyyət məsələlərinin həlli üçün prosedurlar möcuddur.* |
| **1. Qərəzsizliyin təminatı**<br>*Statistik məlumatların toplanılması, işlənilməsi və yayılmasındakı obyektivlik prinsiplərinə riayət olunur.* | **1.1 Peşəkarlıq—**Statistik qaydalar və praktikalar peşəkar prinsiplərə əsaslanır. | *1.1.1 Statistik məlumatlar qərəzsiz əsasda hazırlanır.*<br><br>*1.1.2 Mənbələrin və statistik üsulların, habelə məlumatların yayılması haqqında qərarların seçilməsində yalnız statistik məqsədlər əsas götürülür.*<br><br>*1.1.3 Müvafiq statistik qurum statistik məlumatların yanlış şərh edilməsi və onlardan düzgün istifadə edilməməsi haqqında şərhlər vermək hüququna malikdir.* |
| | **1.2 Şəffaflıq –** Statistik qaydalar və praktikalar şəffafdır. | *1.2.1 Statistik məlumatların toplanması, işlənilməsi və yayılmasının şərtləri və müddəti ictimaiyyətə açıqdır.* |

| Keyfiyyət ölçüləri | Elementlər | Göstəricilər |
|---|---|---|
| | | *1.2.2 Statistik məlumatların rəsmi dərc edilməsindən əvvəl onları hökumətdaxili istifadəçilər tərəfindən əldə etmək imkanı hamıya məlumdur.*<br><br>*1.2.3 Statistika təşkilatlarının məhsulları dəqiq şəkildə müəyyən edilmişdir.*<br><br>*1.2.4 Metodologiyada, mənbə məlumatlarında və statistik üsullarda əsaslı dəyişikliklər haqqında öncədən məlumat verilir.* |
| | **1.3 Etik Standartlar –** Qaydalar və praktikalar etik standartlar ilə müşaiyət olunur. | *1.3.1 İşçi heyətin davranışı üzrə göstərişlər qaydasındadır və heyət onlarla yaxından tanışdır.* |
| **2. Metodologiyanın şəffaflığı**<br>*Metodoloji əsas* beynəlxalq səviyyədə qəbul olunmuş standartlar, qaydalar və praktikalara uyğundur. | **2.1 Konsepsiya və təriflər**— İstifadə olunan konsepsiyalar və izahlar beynəlxalq səviyyədə qəbul olunmuş statistik çərçivələrə uyğundur. | *2.1.1 Konsepsiyalar və təriflərin ümumi strukturu beynəlxalq səviyyədə qəbul olunmuş standartlara, göstərişlərə və ya yaxşı praktikalara uyğundur.* |
| | **2.2 Statistik əhatə dairəsi**— Əhatə dairəsi beynəlxalq səviyyədə qəbul olunmuş standartlar, qaydalar və praktikalara uyğundur. | *2.2.1 Əhatə dairəsi ümumilikdə beynəlxalq səviyyədə qəbul olunmuş standartlara, göstərişlərə və ya yaxşı praktikalara uyğundur.* |
| | **2.3 Təsnifat/Sektorlar üzrə bölgü -** Təsnifat və sektorizasiya beynəlxalq səviyyədə qəbul olunmuş standartlar, qaydalar və praktikalara uyğundur.. | *2.3.1 İstifadə edilən təsnifat sistemləri/sektorlar üzrə bölgü beynəlxalq səviyyədə qəbul edilmiş standartlar, göstərişlər və ya yaxşı praktikalara uyğundur.* |
| | **2. Uçotun əsasları -** Axınlar və qalıqlar beynəlxalq səviyyədə qəbul olunmuş standartlar, qaydalar və praktikalara uyğun qiymətləndirilir. | *2.4.1 Axın və ehtiyatları qiymətləndirmək üçün bazar qiymətlərindən istifadə olunur.*<br>*2.4.2 Uçot "hesablanmışdır" prinsipi əsasında aparılır.*<br>*2.4.3 Ümumi və xalis dəyərlər göstəricilərinin hesablanması prosedurları beynəlxalq səviyyədə qəbul edilmiş standartlar, göstərişlər və ya yaxşı praktikalara uyğundur.* |
| **3. Dəqiqlik və etibarlılıq**<br>*Mənbə məlumatları və statistik üsullar əsaslıdır və statistik məhsullar kifayət qədər reallığı əks etdirir.* | **3.1 İlkin Məlumatın mənbəyi Source data**—Mövcud olan mənbə məlumatları statistik məlumatları tərtib etmək üçün müvafiq əsasdır. | *3.1.1 Məlumatların toplanması ölkənin spesifik şəraitini nəzərə alan geniş məlumat proqramlarından əldə edilir.*<br>*3.1.2 Təriflər, statistik əhatəlilik, təsnifatlar, qiymətləndirmələr və uçotun anına dair ilkin məlumatlar tələb olunan parametrlərə yaxındır.*<br>*3.1.3 İlkin məlumatlar vaxtında daxil olur.* |
| | **3.2 İlkin məlumatların qiymətləndirilməsi – Mənbə məlumatları müntəzəm olaraq qiymətləndirilir.** | *33.2.1 İlkin məlumatları, o cümlədən siyahıyaalmalar, seçmə müayinələr və inzibati mənbə məlumatları daxil olmaqla – müntəzəm olaraq qiymətləndirilir, məsələn, əhatə dairəsi, seçmə xətası, respondentlərin səhvləri və s.; belə* |

| Keyfiyyət ölçüləri | Elementlər | Göstəricilər |
|---|---|---|
| | | *qiymətləndirmələrin nəticələri statistika prosesində işlənilir və nəzərə alınır.* |
| | **3.3 Statistik üsullar**—Əsaslı statistik prosedurlara uyğunluğu təmin etmək üçün istifadə olunur. | *3.3.1 Tətbiq edilən statistik metodlar əsaslandırılmış statistik prosedurlara uyğundur.*<br>*3.3.2 Digər statistik prosedurlar zamanı (məsələn, məlumatlara düzəlişlərin, təshihlərin edilməsi və statistik təhlil) əsaslı statistik üsullarından istifadə olunur.* |
| | **3.4 Aralıq və son statistik məlumatların qiymətləndirilməsi və düzgünlüyünün yoxlanılması -** Aralıq nəticələr və statistik məhsullar müntəzəm olaraq qiymətləndirilir və düzgünlüyü yoxlanılır. | *3.4.1 Aralıq nəticələr digər uyğun informasiyalarla tutuşdurulur.*<br>*3.4.2 Aralıq məlumatlardakı statistik fərqlər qiymətləndirilir.*<br>*3.4.3 Son statistik məlumatlarda statistik fərqlər və problemlərin mövcudluğunu göstərən digər göstəricilər araşdırılır.* |
| | **3.5 Məlumatlara yenidən baxılmanın təhlili** - Yenidənbaxılma, etibarlılığın göstəricisi kimi izlənilir və onların təmin edəcəyi informasiya üçün əldə edilir. | *3.5.1 Yenidənbaxmaların nəticələri öyrənilir və müntəzəm olaraq təhlillər aparılaraq daxili statistik işlərdə nəzərə alınır.* |
| **4. Praktiki yararlılıq -** *Müvafiq dövrilik və vaxtında olan statistik məlumatlar uyğundur və müəyyən edilən düzəliş qaydasına cavab verir.* | **4.1 Dövrilik və vaxtında olma** – Dövrilik və vaxtında olmaq beynəlxalq səviyyədə qəbul olunmuş məlumatların yayılması standartlarına riayət edir. | *4.1.1 Dövrilik məlumatların yayılması standartına uyğundur.*<br>*4.1.2 Məlumatların vaxtında olması məlumatların yayılması standartına uyğundur.* |
| | **4.2 Müqayisəlilik** - Statistik məlumatlar vaxt üzrə və əsas məlumat qrupları ilə uyğundur. | *4.2.1 Statistik məlumatlar sistemi daxili müqayisəliliyi ilə xarakterizə edilir.*<br>*4.2.2 Statistik məlumatlar münasib vaxt dövrü ərzində müqayisəlidir və ya uzlaşdırılmışdır.*<br>*4.2.3 Statistik məlumatlar digər məlumat mənbələrindən əldə edilmiş məlumatlarla uzlaşır və (və ya) müqayisə edilə bilir.* |
| | **4.3 Məlumatlara yenidən baxma: siyasət və praktika -** Məlumatlara düzəlişlərin edilməsi müntəzəm və nəşrə əsaslanan prosedura görədir. | *4.3.1 Məlumatlara yenidənbaxılmalar müntəzəm və şəffaf qrafikə əsasən aparılır.*<br>*4.3.2 İlkin və/və ya düzəliş edilmiş məlumatlar olduqda onlar o cür də, aydın şəkildə qeyd edilir.*<br>*4.3.3 Düzəlişlərin təhlilləri ictimaiyyətə açıqlanır.* |
| **5.Məlumatları əldə etmək imkanı –** məlumatlar və meta məlumatları asan şəkildə mövcuddur və istifadəçilərə yardım uyğun şəkildədir. | **5.1 Məlumatları əldə etmək imkanı**—Statistik məlumatlar aydın və başa düşüləcək şəkildə təqdim olunur,məlumatların yayılmasının formaları müvafiq şəkildədir və statistik məlumatlar vaciblik əsasında mövcuddur. | *5.1.1 Statistik məlumatlar düzgün şərhlər və faydalı müqayisələrin aparılmasını təmin edəcək şəkildə təqdim olunur.*<br>*5.1.2 Məlumatların yayılma vasitələri forması müvafiq şəkildədir.*<br>*5.1.3 Statistik məlumatlar öncədən elan verilmiş qrafik üzrə buraxılır.*<br>*5.1.4 Statistik məlumatlar bütün istifadəçilərə eyni vaxtda təqdim olunur.*<br>*5.1.5 Adi yayım prosesi çərçivəsində açıqlanmayan məlumatlar müraciət əsasında təqdim olunur.* |

| Keyfiyyət ölçüləri | Elementlər | Göstəricilər |
|---|---|---|
| | **5.2 Metaməlumatları əldə etmə imkanı**—Yeni və müvafiq meta məlumatlar mövcuddur. | *5.2.1 Konsepsiyalar, əhatə dairəsi, təsnifatlar, uçotun əsasları, məlumat mənbələri və statisitik üsullar üzrə sənədlər mövcuddur, və beynəlxalq səviyyədə qəbul edilmiş standartlardan, qaydalardan kənarlaşmalar haqqında isə qeydlər vasitəsi ilə məlumat verilir.*<br>*5.2.2 Məlumatların ətraflılıq səviyyəsi nəzərdə tutulan istifadəçi auditoriyasının eyhtiyaclarına uyğundur.* |
| | **5.3 İstifadəçilərə yardım** — Dərhal və ağıllı yardım xidmətləri mövcuddur. | *5.3.1 Hər bir sahə üzrə əlaqə üçün qeydlər nəşr olunur.*<br>*5.3.2 Nəşrlərin, sənədlərin və digər xidmət növlərinin kataloqları mövcuddur və əlverişlidir.* |

## Əlavə II. Məlumat istifadəçiləri sorğusunun nəticələrinin qisa xülasəsi

Məlumat istifadəçilərinin qeyri-elmi müayinəsi (sorğusu) nəticəsində banklar, qeyri-hökumət təşkilatları, səfirliklər, mətbu orqanlardan, qeyri-maliyyə korporasiyalar və hökumət təşkilatlarından 21 cavab alınmışdır. Göstərilən istifadəçilərin əhəmiyyətli hissəsi İstehlak Qiymətləri İndeksinin vaxtlı-vaxtlılığını və dövriliyini qeyd edərək Dövlətstatkomun istifadəçiləri məlumatla təmin etmək xidmətlərinin yaxşı təşkil olunduğunu vurğulamışlar. İstifadəçilərin bəziləri İQİ-nin dəqiq ölçülməsinə, onun adekvat coğrafiyasına və ya əmtəə çeşidinə tam əminliyi yox idi. Lakin mənfi cavablar səciyyəvi olmamışdır. Bəzi istifadəçilər indeksin metodologiyası haqqında məlumatları, digərləri isə axtardıqları məlumatı tapa bilməmişlər. Ümumiyyətlə, müayinənin nəticələri indeksin əhatəliliyi və metodologiyasına dair məlumatın daha asan əldə edilə bilinməsini, istifadəçilərə məlumat axtarışında köməkliyin göstərilməsini ön plana çəkmişdir. İQİ-nin əhəmiyyətinin izah edilməsi işi davam etdirilməlidir. Bu dialoq bəzi istifadəçilərdə indeksə olan inamsızlığın mənbələrinə dair faydalı məlumatın əldə edilməsinə kömək etmiş olar.